# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 240** **Bakı şəhəri, 24 avqust 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli və "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının yaradılması, "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının Əsasnaməsi"nin və "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının tərkibi"nin təsdiq edilməsi barədə" 2020-ci il 23 sentyabr tarixli 350 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

"Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1326 nömrəli Fərmanının 6.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 iyun tarixli 190 nömrəli, 15 iyul tarixli 209 nömrəli, 17 iyul tarixli 212 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nın 153-cü hissəsində "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" sözləri ilə əvəz edilsin.

**2.** "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının yaradılması, "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının Əsasnaməsi"nin və "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının tərkibi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 sentyabr tarixli 350 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1223) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurası haqqında Əsasnamə"nin 2.2.4-cü yarımbəndində və 3.7-ci bəndində ismin müvafiq hallarında "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının tərkibi" üzrə:

2.2.1. aşağıdakı məzmunda 5-1-ci hissə əlavə edilsin:

"5-1. Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri";

2.2.2. 9-cu hissədə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri" sözləri "Azərbaycan Respublikası Kosmik Agentliyinin (Azərkosmos) İdarə Heyətinin sədri" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.-2021.- 25 avqust.- S.2.